

*Şərq ölkələrinin təbiəti kimi kinosu da hər zaman ekzotik və qəlbləri fəth edən xüsusiyyəti ilə yaddaşlara həkk olunub. Dünya kinosu yaranandan bir neçə il sonra Lümer qardaşları və onların operatorlarının digər ölkələrə, eləcə də Şərqə axını başlayır. Və bununla da dünyanın demək olar ki, hər yerində insanlar canlandırılmış bu fotoşəkillərin qeyri-adiliyinin şahidi olurlar. O gündən bu günədək Şərq ölkələri kinosu dünya kinosundan çox-çox geri qalmasına baxmayaraq hətta öz vətənlərində deyil, Avropa ölkələrində belə kifayət qədər tamaşaçı toplamışdır. Bu kinonun tamaşaçıları kinoşünaslar və kino həvəskarlarıdır.*

# TÜRK SİNEMASINDA TARİXİ MƏRHƏLƏ

Lümer qardaşlarının ilk seansından bir neçə ay sonra Bosfor sahillərində pivə salonlarının birində ilk kino sseansı keçirildi. Bu filmlərin tamaşaçılarının çoxunu tələbələr təşkil edirdilər. Lakin yenicə ayaq açıb gəzməyə başlayan Türk kinosunda böyük bir nəsil yetişməkdədir. Belə sənətkarlardan biri də Fuat Uzlınay - ilk Türk "sinemaçısı" adlanır. Türk sinemasının ilk filmi "Ayastefanosdakı Rus abidəsinin dağıdılması" mərasimini çəkir. Qısa, lakin tarixi dəyəri yüksək olan bu filmdə - ruslar tərəfindən 1876-77-ci illərdə baş verən qələbədən sonra zəfər tacı (anıtı) yüksəldilmişdi. Yaşıl kənddə inşa edilən abidənin yerlə-yeksan edilməsi lentə alınmışdı. Bu qısametrajlı film Türkiyə üçün böyük əhəmiyyət kəsb etməsinə baxmayaraq film haqqında məlumat bu günlərə qədər çox az bir şəkildə gəlib çatmışdır.

Fuat Uzkanay Türk sinema tarixində teatrla heç əlaqəsi olmayan ilk əsl "sinemaçıdır".

Türk kinosunda silinməz iz buraxan Muhsin Ərtoğrul "Bir millət uyanuyor" (D.Y.Qriffitin "Millətin yaranması" filminin tarixindən) "Spartakus" (1926) filmlərini çəkir. Mühsi Ərtoğrulun "Kemalfilm" şirkəti ilə birgə Türk kinosunda "Olay" yaradan sənət əsəri "Ateşdən köynək" filmidir. Bu film sənətkarın yaradıcılığının enişli-yoxuşlu, həyəcanlı zəhmətinin nəticəsidir. Halidə Edin Adıvarın eyniadlı romanı əsasında çəkdiyi bu filmin ssenarisi Mühsun Ərtoğrula aiddir. Rejissor isə Cizmi Ardır.

Bu sənət əsəri o dövrün kinosunda çox uğurlu və əvəzolunmaz filmdir. Romanda əks olunan obrazlar həqiqətən həyatda yaşamış, bu torpaqlarda əsarətə, köləliyə qarşı mübarizə aparmış qəhrəmanlardır. Bütün bunlarla yanaşı Azadlıq mübarizəsində iştirak etmiş yüzlərlə insan vardır. M.Ərtoğrulun filmləri içində ən çox bəyənilən, uğur qazanan, yaddaşlara həkk olunan, uzun müddət ekranları tərk etməyən bu filmin rejissoru Erğüment Behzat Lavdır.

1923-cü ildə çəkilən "Ateşdən köynək" filminin mübahisələrə səbəb olması təkcə filmin həmin dövr üçün aktuallığı deyil, həm də mövzunun orijinallığı idi. Bu film ilə Türk sinemasının ilk dəfə gerçəkliklə üz-üzə gəldiyini hesab etmək olar. Bu zəruri bir gerçəkliyi, reallığı öz parametrlərinə uyğun olaraq əks etdirir. Ən əsası isə azadlıq uğrunda gedən mübarizəyə həsr olunan ilk filmdir.

Halidə Edin Adıvarın eyniadlı romanı əsasında ssenarisi Mühsin Ərtoğrula aid olan bu filmdə eyni qıza aşiq olan iki gəncin həyat hekayəsindən söhbət açılır. İlk öncə arxa planda özünü hərdən hiss etdirən azadlıq mübarizəsi filmin sonrakı epizodlarında artıq ön plana keçərək filmin əsas leytmotivinə çevrilir. Romanın müəllifi Halidə Edin yaşadığı bütün hadisələri (Sultan Əhməd mitinqi, cəbhədə yaralıların vəziyyəti, döyüş səhnələri və s.) çox ustalıqla romanda əks etdirmiş və beləliklə də "Ateşdən köynək" ("Alovlu köynək") filmi Türkiyənin hər yerini bürümüş azadlıq mübarizəsinin ekranda ilk müjdəçisi oldu.

Xarici mətbuatda "Türk kinosunun ən dəyərli, baxımlı sənət əsəri kimi əks olunan M.Ərtoğrulun bu əsərinin xüsusilə vurğulanacaq tərəfi də odur ki, ilk dəfə Türk qadın aktrisaları məhz bu filmdə rol almışdılar. (Neyyirə Nuyir və Bedla Muvahhum)

Sonralar bu filmin uğurunu unuda bilməyən rejissor yenidən azadlıq mübarizəsi illərinə dönməyi qərara aldı və beləliklə fransız yazıçısı Franqols de Kurelin "Acımasız torpaq" adlı filmin Rəşad Nuri Güntəkinin "Bir gecə faciəsi" əsərinin adı ilə 1924-cü ildə yaratdığı bu ekran əsəri "Ankara poçtu" adlanırdı. Filmdə N.Neyyer, Behzat Butaq, İsmet Sırrı, Kemal Küçük, Namit Özcan, Hazım Körmükcü və başqa aktyorlar çəkilib. Çəkiliş aparmaq üçün studiya olmadığından Roya kinoteatrının arxasında Yeşil Cam küçəsində açıq havada dekorasiya quraraq işə başlandı.

- Ərtoğrul Azadlıq mübarizəsini göstərmək üçün istifadə etdiyi bütün obrazlar, hadisələr müharibə çərçivəsindən kənara çıxmır. Film 1929-cu ildə "Mələk sinemasında" eyni zamanda mətbuat işçiləri qarşısında nümayiş olundu. Baxış zamanı

iştirak edən insanlar filmin milli azadlıq mübarizəsinə aid çox aktual və diqqətiçəkən bir mövzusu olduğunu qeyd etdilər.

1932-ci ildə Mühsin Ərtoğrul "Bir millət uyanuyor" (D.Y.Qriffitin "Millətin oyanması" filmi ilə sıx əlaqəli olduğu və ya tam şəkildə bu filmdən götürüldüyü açıq aşkar bəllidi) filmi ilə "Ateşdən köynək" və "Ankara poçtu" silsilə filmlərinin ardı olaraq milli azadlıq illərinə dönərək Nizaməddin Nazim Tepedelenli oğlunun ssenarisi əsasında bu filmi çəkdi. Filmdə reallıq, gerçəklik nə qədər gözlər önünə sərilsə də aradan uzun müddət keçdiyi üçün bu yeni Azadlıq mübarizəsi filmi sanki əvvəlki həyəcanı, coşqunu tamaşaçıya çatdıra bilmədi. Tamaşaçı bu filmi sanki qəbul etmədi.

"Nizamettin Nazifin sözlərinə görə obrazların hamısı mənim azadlıq mübarizəsi zamanı xatirələrimin arasından seçilmişdir".

Ölkənin başda gələn liderləri hələ o vaxtlar bu filmin həqiqi dəyərini anlamamışdılar. Ona görə bu filmə çoxları həqiqi qiymət verməkdən çəkinirdi. Amma filmə bəzi dövlət adamları qiymət verdilər. Heç bir yardımı əsirgəmədilər. Çəkilişlər üçün lazımı şərait yaratdılar. Qazı Mustafa Kamal Atatürk ssenarini oxuduqdan sonra bu filmin Türkiyədə azadlıq hərəkatının əsl mayakına çevrildiyini qeyd etmişdir. Hətta filmdə Mustafa Kamal və İsmət Paşa epizodların birində çəkilməyi qəbul etmişlər. Lakin ən realist hərəkət edən savaş və dövlət qəhrəmanı Kazım Paşa olmuşdu. Kazım Paşa həddindən artıq kök olduğunu və əvvəlki formasına qayıtmayacağını son illərdə tez-tez bildirmişdi. Lakin buna baxmayaraq Qazi Paşa bu film üçün Cankayada kamera qarşısına keçərək böyük bir nitq söyləmişdir. O, bildirmişdi ki, "Türk xalqının bu apardığı qəhrəmanlıq mübarizəsi əbədi olaraq yaddaşlara həkk olunmalıdır. Məhz bunun üçün bu filmin bu mübarizəni gələcək nəsilə çatdırmasında körpü rolunu oynayacağını vurğulayıb. Ona görə də biz bütün qüvvəmizlə çalışmalıyıq ki, film bu qəhrəmanlıq mübarizəsini anladan əsl salnaməyə çevrilsin".

Film zamanında böyük uğur qazandı. Neçə illər keçməsinə baxmayaraq Anadoluda, Turkiyənin ucqar rayonlarında belə tez-tez nümayiş olunurdu. Film o dövr üçün çox səs-küyə səbəb olacaq tamaşaçı topladı...

- Mühsin Ərtoğrul ömrünün sonuna yaxın bir çox komediyalar, melodramlar çəkdi. Lakin buna baxmayaraq "Bir millət danır" filminin uğuru rejissoru hələ də tərk etmirdi. Məhz bu cür sənət əsərləri yaradan rejissor haqqında E.Şener yazırdı: ".....- bir həqiqətdir ki, Mühsin Ərtoğrulun kinonu heç, amma heç ciddiyə almamış, ona bir əyləncə kimi baxmış".

Lakin etiraf edək ki, sənətə əyləncə kimi baxan Mühsin Ərtoğrul yaratdığı sənət əsəri əsl şedevrə çevrildi. Ömrünün sonunadək onu tərk etməyən tamaşaçı alqışı bir çox yad fikirləri alt-üst edirdi. Lakin Mühsin Ərtoğrul sənətkar kimi deyil, adi bir insan kimi hər kəsin dandığı, gizlətdiyi bir reallığı, gerçəkliyi danmır, çəkinmədən söyləyirdi:

- Zaman sərhəddi və pul qazanmaq həvəsi olmadan bir film çəkmək mən də istərdim, təəssüf ki, alınmadı".

1947-ci ildə rejissor Fərdi Tayfur Mühsin Ərtoğrulun yaradıcılığından təsirlənərək, ordunun yardımı ilə yenidən azadlıq mübarizəsini əks etdirən "Azadlıq medalyonu" filmini çəkdi. "İpək film" şirkəti tərəfindən çəkilən bu film haqqında saysız-hesabsız şüarlar səslənirdi:

- Budur qürurla, iftixarla izləyəcəyiniz böyük, möhtəşəm Türk filmi. Bütün əzəmət və əlçatmazlığı ilə canlanan bir tarix... Hər kəsi ağladan, hər kəsi sevindirən, həyəcandan-həyəcana, türk qəhrəmanlığını qürurla göstərən ilk böyük yerli səsli filmdir" deyirdilər.

1949-cu ildə rejissor Aydın Arakon tərəfindən o dövrün ən bahalı tarixi belqesel filmi "İstanbul fəthi" (1950-51)-ni çəkdi. Rejissor köməkçisi Ayanoğludur. "Atlas-film" şirkətinin "ulduz" rejissoru halına gələn Aydın Arakon 1951-1952-ci illərdə hər biri ayrı-ayrı mövzularda olan daha üç film çəkdi. "Vətən üçün" (1951), Esat Mahmut Karakurfun romanı əsasında "Ankara ekspresi" və "Qızıl tuğ" filmləri də uğurlu alındı.

Mübarizə illərində İstanbuldakı Nazi məmurlarının əyləncələrinə romantik baxış, bir türk subayı ilə bir Alman qadın kəşfiyyatçısının hekayəsi ətrafında cərəyan edən "Ankara ekspresi" filmi ilə, Cengiz Han, Hasan Sabah kimi tarixi şəxsiyyətləri əks etdirən "Qızıl tuğ" filmi ilə yanaşı Aydın Araqonun ən diqqətə layiq filmi "Vətən üçün" filmidir. Filmin ilk bölümlərində yer alan işğal altındakı İstanbul mövzusundan önçəki kadrlar - öncəki illərdə çəkilən "Azadlıq mübarizəsi" filmlərinin bəzi kadrları, gizli təşkilatlar, insanların başına gətirilən işgəncələr, həbsxanadan adam qaçırmalar və s. acınacaqlı kadrlarla filmin birinci yarısı, ikinci yarısı isə Anadolu bölümü ilə diqqəti cəlb edir. Anadolunun ucqar bir bölgəsində yaşayan kəndli bir qız bütün çətinlikləri dəf edərək azadlıq mübarizəsinə qoşularaq cəbhəyə yollanır. Film böyük uğur qazandı və ayrı-ayrı vaxtlarda Türkiyənin bir çox ərazilərində nümayiş olundu.

1949-59-cu illərdə çəkilən filmlərin siyahısına nəzər salsaq görərik ki, tarixi filmlər azlıq təşkil edir. Lakin bunların siyahısında özünəməxsus yer tutan "İngilis Kamal Lavrense qarşı" tarixi filmidir. Rejissor Lütfi Akadın çəkdiyi bu möhtəşəm filmin ssenari müəllifi Osman F.Sedendir.

Rejissorun açıqlamalarına görə film başdan-başa macəra, casusluq, eşq, intriqa filmi olmalı idi. Lakin filmə arxivlərdən o zaman üçün çox böyük dəyər kəsb edən tarixi və sənədli kadrlar əlavə edərək filmi tamamilə dəyişərək ərsəyə gətirdi.

Osman F.Seden, Lütfi Akadın ingilislərlə bu ortaq çalışması tarixi bir dönəmi ələ almış və tarixi şəxsiyyətləri ön plana çəkmişdir.

1958-ci ildə "Üç dost" filmi ilə gözlənilməyən zirvəyə yüksələn rejissor Meh Un 1960-cı ildə tamaşaçıların ixtiyarına verilən Mürkerrem Kamil Sunun romanı əsasında ssenarisi Arif Yılmazın olan "Oddan bir parça" filmi ilə tamaşaçı diqqətini bir daha üzərinə topladı. Azadlıq mübarizəsinə yönələn rejissor bu filmdə sevgi-dostluq-görev (iş, məsuliyyət) prizmasından yola çıxaraq tarixi bir mərhələnin fonunda üç dostluq hekayəsi canlandırdı. Mübarizə, döyüş bütün bu hadisələri öz tərəfinə çəkərək onların bir çərçivədə inkişafına imkan yaradır. Filmdəki dəyişik xarakterlər, qarşıya çıxan maneələrin tez-tez dəyişməsi vəziyyəti daha da gərginləşdirir.

Lakin son illər Türk sinemasında tarixi filmlər yox dərəcəsindədir. Ancaq tarixi filmlərə tələbat böyükdür. Xüsusilə Atatürk haqqında çəkilən filmlər. Bu film haqqında bir çox söhbətlər getməsinə baxmayaraq illərdir ki, bu film hələ də araya-ərsəyə gəlməyib. Hətta məşhur türk qəzetlərinin birində yazırlar:

- Hər dəfə eyni şeylər olur. Hər il 19 may, 30 avqustda eyni filmlər təkrar-təkrar ekrana gəlirdi. Bu gün belə, "Onun süvarisi", "Çarəsiz qəhrəmanlar", "Vətən üçün", "Çanakkale Aslanları", "Bir millət oyanması" filmləri hər bayramda ekranlarda görünür. Bir zamanlar kinoda hərəkat gücləndi. Bu cür filmlər tez-tez çəkilirdi. Atatürkün əmri və davamlı diqqəti sayəsində "İstiklal", "İzmir yollarında" və başqa filmlər çəkilmişdi. Lakin bu fəaliyyət birdən-birə durdu. Ancaq bir səbəb yaranarsa bu cür filmlər çəkilirdi. (1963 və 1974-cü illərdə Kıbrıs döyüşlərindən sonra, ya da Kore savaşından sonra) Həmin vaxtlarda Hollivud hələ də daxili savaş və 1-2-ci dünya müharibəsi səpkili filmlər çəkirdi. Fransa dövləti hətta Napoleonun hər bir səfərinə yeni bir film çəkirdi. Türkiyədə isə bu sahədə ilk addımı TRT atdı. Valida Ziya Oztanın filmləri olmaqla bir çox belqesellər çəkildi. Atatürk haqqında filmə hazırlıq başladı. Çəkiləcək film haqqında yazıçı Tezcan belə yazırdı:

- "Filmin çəkilməsində dövrün məmurları Mesum Yılmaz və Hasan Celal Güzeli günahkar hesab edirlər".

Məhz dünya səviyyəsində Atatürk filminin çalışmalarına 1981-ci ildə başlanıb. Lakin 24 ildir bir nəticə əldə edə bilməyən Yüksək Öğrenim Mədəniyyət naziri və Boğaziçi universitetinin keçmiş rektoru prof. dr.Semih S.Tezcan bu zaman içində yaşadıqlarını "Atatürk dizi filmi necə baltalanır" adlı kitabda topladı. Hətta kitabda 1986-cı ildə Prezident sarayında Atatürk filmi ilə bağlı keçirilən görüşün pərdə arxasını da yazmışdır.

Eyni zamanda qeyd edir ki, hər dəfə yeni nazir gələndə indiyə qədər çox danışılan, ancaq bütün bunlara baxmayaraq həyata keçirilməyən bir layihədən bəhs edir. - Bu ya Azadlıq mübarizəsi, ya da Atatürkün həyatıdır.

Türk sinemasının əvəzsiz aktyoru Ediz Hun bu haqda belə yazır: - Atatürkü ancaq bu ölkədə böyümüş bir türk rejissoru çəkə bilər. Yalnız Atatürk filmi, ya da Azadlıq mübarizəsi deyil, bir çox yazıçıların mükəmməl əsərləri var. Məsələn - Namiq Kamalın Maltaya sürgün olunması layihəsi həyata keçirilərsə dünya arenasına çıxacaq bir film olar. Atatürk haqqında ilk dəfə film çəkmək ideyası 1956-cı ildə ortaya çıxdı. Adil Özkaplan adlı bir vətəndaş Los-Ancelesdə yaşadığı vaxtda kino sahəsindəki bəzi önəmli insanlarla tanış olduğu önəmli şəxslərlə birlikdə Türkiyəyə gəldi. Dövlət məmurları ilə görüşmək istədi. Lakin buna heç kim razı olmadı. Ümumiyyətlə, Qərbdə - Atatürk şəxsiyyətinə maraq o qədər də güclü deyil. Ona görə də inanıram ki, çəkilən bu film də uğurlu alınsın.

Atatürkü yabanı yönetmenler anlayamaz - deyən Ediz Hup əlavə edir:- Bu arada Boğaziçi universitetinin keçmiş rektoru Semih Tezcan Atatürk filmini çəkmək üçün amerikanlılarla işləməyə üstünlük verdi. Buna səbəb çox idi. Pul, texnologiya və ən əsası isə "pazarlama" və s. səbəblər. Sonra bu işə baxılması üçün mədəniyyət nazirliyinə verilir. O, zamanda nazir Məsum Yılmaz idi. Bu işə baxılması bir neçə il çəkdi. Nəticədə 1990-cı ildə, 15 nəfərə Atatürk haqqında ssenari yazmaq sifarişi olundu. Bunlar arasında romançılar, ədəbiyyatçılar, ssenariçilər, hətta rejissorlar da var idi. Bu 15 nəfərdən biri də mən idim. "Qazi ilə Lətifə" adlı bir ssenari yazdım. Bu ssenari 9 iyul 1922-ci ildə "Milli Ordunun" İzmirə girişindən etibarən Mustafa Kamalın Lətifə xanımla tanış olması, evlənməsi və bu vaxt çərçivəsində baş verən Lozan müzakirələri, cümhuriyyətin elan olunması, Şeyx Sənan üsyanı kimi çox vacib hadisələri və ən nəhayət 25 avqust 1925-ci ildə Atatürkün Lətifədən ayrılmasından söz açırdı. Bu ssenari 3 illik zaman çərçivəsində bir evlilik hekayəsi idi.

1991-ci ildə bu ssenarilərdən ikisinin filmə çəkilməsinə qərar verildi. Birincisi Refik Erduranın yazdığı "Metamarfoz", digəri isə mənim yazdığım "Qazi ilə Lətifə"dir. "Metamarfoz" Fevzi Tunanın rejissorluğu ilə çəkildi. Bu filmin çəkilişləri digərinə nisbətən daha rahat keçdi. İkinci isə "Qazi ilə Lətifə" daha böyük maliyyə vəsaiti tələb edirdi. Lakin dövlət buna razı oldu. Mədəniyyət Nazirliyi filmin çəkilişlərinə bütün sərf olunacaq vəsaiti öz üzərinə götürdü. Çəkilişlər üçün hazırlıq başladı. Elə bu zaman seçkilər keçirilirdi. Seçkilərdə nazirlik vəzifəsinə yenisi təyin olundu. Bununla da çəkilişlərə hazırlıq dövrü dayandırıldı. İllər keçməsinə baxmayaraq irəliləyiş hiss olunmurdu. Sonda Mədəniyyət Nazirliyində İsmail Cem "Biz bunu TRT ilə yapalım" dedi. Beləliklə "Qazi ilə Lətifə" filminə dövlətin ayırdığı maliyyə vəsaiti TRT-yə devr edildi. TRT isə bu vəsaitlə "Kurtuluş" (Azadlıq) filmini çəkdi.

- Mən bir Atatürk filminin çəkilməsi haqqında 1956-cı ildə başlayıb 1996-cı ilədək davam edən fikrə və çəkiləcək zəhməti ifadə etməyə çalışdım. Mənə görə Türkiyədə bugünki şərtlərlə ciddi bir tarixi Atatürk filmi çəkmək imkanı yoxdur.

Bütün bunlara baxmayaraq Atatürk haqqında film çəkmək iddiası hələ də davam edir. Rejissorluğunu Bruce Beresford edəcəyi "Atatürk" filmi layihəsində Tarquin Oliver ilə birgə "Ececutitve Producer" şirkəti olaraq çalışırlar. Yenidən "Atatürk - o sarışın qurd" adlı ssenariyə film çəkmək iddiası irəli sürülür. Filmin çəkilməsi üçün 60 milyon dollar vəsait ayrılıb. Lakin filmin çəkilişləri müəyyən səbəblərdən dayandırılıb.

Artıq bu mövzu türk rejissorları üçün əlçatmazdır. Çünki bu layihənin həyata keçirilməsi üçün 75-100 milyon dollarlıq büdcə və yüksək texnologiya lazımdır. Bu da Amerikasız mümkün deyil. "Atatürk Çanakkale savaşı" - bütün bunlar Avusturyalıların, Yeni Zellandlıların, İngilislərin, Almanların ən əsası bizlərin ortaq hekayəsidir. Ən maraqlısı hər ölkənin tarixində, özəlliklə keçid dönəmlərdə özünü dərketmə ehtiyacı ortaya çıxır. Milli ənənələr baxımından özünü tanımaq, milli köklərinə yönəlmək ölkənin ən vacib məsələlərindən biridir. Bu reallıq, gerçəklik esqi Türklərin düşüncəsində də dərin iz salmışdır. Bilge Kacan adıyla tanınan daş kitabələrdə bunları yazır:

- Ey Türk Oğuz bəyləri! Türk xalqını duyun. Üzərinizə səma çökmədikcə, altda yer dəlinmədikcə, bil ki, Türk diyarı, türk yurdu, türk dövləti yıxılmaz. Su kimi axıtdığın qanına, dağlar kimi yağdığın sümüklərinə layiq ol. Ey ölümsüz türk ulusu özünə qayıt.

Özünü dərketmə düşüncəsi ədəbiyyatda, sənətdə, əsasən də bu sənətlərin ən zəngini və diqqətçəkici növü kinoda tariximizin təməlini qoyur və kino peşəkarları belə sübut edirlər ki, milli düşüncəyə sahib olmayan bir sənət heç bir zaman səmərəli dəyər qazana bilməz. Sənətdə milli dəyəri yüksəltmək, onun qürur hissini, köklərə hörmətini və qəhrəmanlıq əzmini yaşatmaq deməkdir.

Dahi Türk yazıçısı Ziya Gökalp demişkən: - Türkçülük Türk millətini ucaltmaq deməkdir.

**Vüsalə XANLARQIZI**